Əziz Musa
ədalət.- 2020.- 31 oktyabr.- S.14

# Gözün aydın Cəbrayılım

Ey arxamız, dayağımız,
Azad olub torpağımız.
Ucalıbdı bayrağımız,
Gözün aydın, Cəbrayılım.

Sevinir xan Arazımız,
Səslənir xoş avazımız.
Gəlibdi bahar yazımız,
Gözün aydın, Cəbrayılım.

Gülür doğma Çərəkənim,
Qayıdıbdı gül əkənim.
Daha gülür dərd çəkənim,
Gözün aydın, Cəbrayılım.

Qartal dönüb Ziyarata,
İgidlər minib Qırata.
Dönmüşük təzə həyata,
Gözün aydın, Cəbrayılım.

Qalib gəlmişik düşmənə,
Dönmüşük yurda, vətənə.
Doğma yurddayıq yenə də,
Gözün aydın, Cəbrayılım.

İgidlərə min afərin,
Açılıbdı xoş səhərin.
Gülür qoca Xudafərin,
Gözün aydın, Cəbrayılım.

Qayıdıb geri durnalar,
Əl eyləyir xan çinarlar.
Sevinir ata-analar,
Gözün aydın, Cəbrayılım.

Alqış deyir Gəyən düzü,
Gülür Ağoğlanın üzü.
Ordumuz sevindirdi bizi,
Gözün aydın, Cəbrayılım.

Dağtumasdan, Balyanda tək,
Baxdıqca sevinir ürək.
Gəlin-gəlin deyib, gülək,
Gözün aydın, Cəbrayılım.

Biz köçkün deyilik daha,
Çox dözdük naləyə, aha.
Şükür, min şükür Allaha,
Gözün aydın, Cəbrayılım.